# Ələsgər Əlioğlunun iki şeiri haqqında



■ Tural Adışirin

Azərbaycan ədəbi mühitinin formalaşmasında bölgə ədəbi mühitlərinin danılmaz rolu var. Mən bu yazımda Goranboy ədəbi mühitinin aparıcı imzası, lakin Gəncə mühitinin yetirməsi olan istedadlı şair, yazıçı Ələsgər Əlioğlu yaradıcılığından söz açmaq niyyətindəyəm. Goranboy ədəbi mühitindən danışarkən Sabir məktəbinin ən böyük davamçılarından olan Əli Nəzminin adını qeyd etməyə bilmərəm. Bu ədəbi mühitinin təmsilçiləri kimi Bisavad Teymurun, Miskin Camalın, tanınmış şairə, bəstəkar Xanım İsmayılqızının, gənclərdən Rəvan Cavidin və b. adlarını da çəkmək yerinə düşər. Bu yazımda xüsusən Ələsgər Əlioğlu imzasına toxunmaq fikrindəyəm. Bu imzanı ilk dəfə bir bəndlik bu şeirlə tanımışam:

*Mən səngər yerindən bir güllə tapdım,*
*Hələ atılmayıb qalıbdı dolu.*
*Deyirəm, görəsən, hansı ananın,*
*Salamat qayıdıb üstünə oğlu.*

Böyük bir məna daşıyan bu bir bənd məni bu istedadlı imzayla tanışlığa maraq yaratdı. Ələsgər Əlioğlu çox sferalı yaradıcılığa malik yazıçıdır. Onun uşaq şeirlərini, hekayələrini, lirikasını müntəzəm olaraq respublika ədəbi mətbuatında da izləyir və oxuyuram. Ələsgər Əlioğlunun uşaq şeirləri daha çox alqışa layiqdir. Çünki müasir zamanda uşaq şeirləri olduqca az yaranır, bir sıra aktual problemləri də olmamış deyil. Düzdü, bu mövzuya Rafiq Yusifoğlu, Zahid Xəlil, Sevinc Nuruqızı, Qəşəm Nəcəfzadə, Ələsgər Əlioğlu, gənclərdən Faiq Hüseynbəyli, Allahşükür Ağa kimi ciddi qələm sahibləri də toxunur və yazırlar. Əlioğlunun hekayələri də mövzu və ideyaca orijinal, oxunaqlıdır. “Kaspi”, “Ədalət”, “525-ci qəzet” və. b bu istedadlı yazıçı müntəzəm hekayələri ilə də ədəbi mühitdə təmsil olunur. Bu yazıda Ələsgər Əlioğlunun yaradıcılığı haqqında uzun-uzadı danışmaq yox, başlıqda qeyd etdiyim iki şeirinə - “Dünyanın yeriyən ağaclarıyıq”, “O sevdanın axırı” daha çox toxunmaq istəyirəm. Bu iki şeirlə “Ədalət” qəzetinin 7 dekabr sayında tanış oldum. Düzü, bundan qabaq bu şeirləri “Dəryada gəmim qaldı” kitabında da oxumuşam. “Dünyanın yeriyən ağaclarıyıq” şeiri məni mövzu və ideya cəhətdən daha çox cəlb etdi. Çünki burada ağac kultu, ağaca münasibət var, ağaca obrazlı yanaşma, təbiətlə insanın vəhdəti var. Bir folklorşünas kimi (p.s: AMEA ŞREM-in “Folklorşünaslıq və el sənətləri” şöbəsinin elmi işçisiyəm) bu mövzu tədqiqat sahəmdən biridir. Ələsgər Əlioğlunun bu şeirinin bədii ovqatı, poetik yükü olduqca zəngindir. Şeiri misra-misra təhlil etmək fikrindən uzağam. Digər şeiri “O sevdanın axırı” nakam sevgi mövzusundadır. Bu mövzu hər zaman poeziyanın ana xətti olub, ən böyük şeirlər də sevənlərin qovuşmamağından yaranıb. Sevgidən yanmayan, Əlioğlu demişkən tüstüsü başından çıxmayan çətin tapıla. Məni ədəbi mühitdə daha çox tanıdan poeziyanı təbliğ etməyimdir. “Bölgələrdə ədəbi mühit”, “Unudulmazlar” rubrikaları aparıram. Manera.az saytının redaktoruyam. “Ədəbiyyat qəzeti”ndə dəfələrlə təqdimatımda unudulan imzalardan rubrikalar gedib. Haqqında söz açdığım bu yazıda son olaraq istedadlı yazıçı Ələsgər Əlioğlunun qeyd etdiyim iki şeirini oxuculara təqdim edirəm:

*Dünyanın yeriyən ağaclarıyıq*
*Bahara həmişə çatar əlimiz.*
*Dünyanın yeriyən ağaclarıyıq*
*Bir yaşıl yarpaqdır hər əməlimiz.*

*Palıdlar da bir az əfəldir hələ,*
*Onların yanında çox zirəyik biz.*
*Dumanlı, buludlu gündə də belə*
*Düşər yer üzünə düşər kölgəmiz.*

*Bizim başımıza çıxmaq çətindir,*
*Sallaşan tapılar ətəyimizdən,*
*Bizi gövdəmizdən yıxmaq çətindir,*
*Ancaq yıxılarıq ürəyimizdən.*

*Torpaqda da olsa ayaqlarımız*
*Kök atıb qalxarıq əllərimizdən.*



*Ağzı günə qalar budaqlarımız*
*Ağlımızda yuva qurular bəzən.*

*Necə ki, necə ki dik dayanarıq*
*Yanarıq, olsa da dörd yanımız buz.*
*Elə ağaclarıq höyüş yanarıq*
*Dünya yığışsa da yanmaz qurumuz.*

* * *

*O gözəl üstümdən çəkdi gözünü,*
*Tökdü çiçək-çiçək güllü yazımı.*
*Çay təki çevirib məndən üzünü,*
*Daha başqa səmtə axası oldu.*

*O getdi, ömrümdən uzağa getdi,*
*Doğma çığır itdi, doğma iz itdi,*
*Özgə birisini yanıb isitdi,*
*Tüstüsü başımdan çıxası oldu.*

*Düşdüm bir fəsildən neçə fəsilə,*
*Dedim, sevən könlüm, daha bəs elə,*
*Axırda ortada qalan bir həsrət,*
*Bir də Əlioğlunu yaxası oldu...*

Kaspi 2019.- 28 dekabr.- S.23.